

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 57 (23.944)

30 mart 2022-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub.

Ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət otaqları və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib. Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub. Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar vardır. Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir.



## Naxçıvanda dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib





Martın 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: Dini-mənəvi dəyərlər hər bir mütərəqqi cəmiyyət üçün vacib sahədir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"İnsanlar dövlətimizi, mənəviyyatımızı qorumalıdırlar. Biz gərək mənəvi saflıq uğrunda mübarizə aparaq. Yalnız və yalnız bu yolla cəmiyyətimizi sağlamlaşdıra, inkişaf etdirə və müstəqil dövlətimizi irəliyə apara bilərik".*** Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə sağlam dini ideologiya formalaşdırılmış, Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində dövlət-din, 48-ci maddəsində isə dini etiqad və vicdan azadlığının hüquqi əsasları təsbit olunmuşdur. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında da dahi şəxsiyyətin müəyyənləşdirdiyi dövlət-din münasibətləri ardıcıl şəkildə həyata keçirilmiş, 169 məscid tikilərək və yaxud yenidən qurularaq istifadəyə verilmiş, Nuh Peyğəmbərin türbəsi, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi və 3 imamzadə bərpa olunmuşdur. Hazırda muxtar respublikada 214 məscid vardır. Dindarların biliklərinin artırılması sahəsində də işlər görülmüş, 407 din xadiminə vəsiqə verilmişdir. Mövcud dini-mədəni irsin və görülən işlərin nəticəsi olaraq Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Ali Məclisin Sədri demişdir: Yaşadığımız dövrdə dini öyrənərək və mahiyyətinə uyğun təbliğ etmək qarşıda duran əsas vəzifədir. Görkəmli şair və dramaturq Moris Meterlinq də vaxtilə yazırdı ki, ***"Dini tədqiq edərək öyrənən tədqiq etmədən inanandan daha inamlı və imanlıdır".*** Bugünkü müşavirədə də muxtar respublikada dini-mənəvi dəyərlər sahəsində görülən işlərə bir daha diqqət yetiriləcək, aidiyyəti üzrə müvafiq tapşırıqlar veriləcəkdir.

Müşavirədə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında elmin və dinin inkişafına yüksək diqqət və qayğı göstərilmiş, dini-mənəvi dəyərlərlə bağlı ümumiləşdirici əsərlər, 20-yə qədər kitab və monoqrafiyalar, çoxsaylı məqalələr nəşr etdirilmişdir. Həmçinin muxtar respublikada "Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr", "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər", "Azərbaycanlıların məişətində islamaqədərki mərasimlər, ayinlər və inanclar", "İslamda imamilik" mövzularında elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaları müdafiə edilmişdir. Həmçinin muxtar respublikada indiyədək bərpa olunan 70-dən artıq tarix-mədəniyyət abidəsinin böyük bir qismini İslam dini ilə əlaqədar olan abidələr, o cümlədən məscidlər, xanəgahlar, türbələr, imamzadələr və başqaları tutur. Ali Məclis Sədrinin Sərəncamları əsasında AMEA Naxçıvan Bölməsində yaradılan "Tədqiqat qrupları" İslam mədəniyyətinin möhtəşəm nümunələrindən olan Gülüstan türbəsi və Qarabağlar Türbə Kompleksində tədqiqatlar aparmış, tədqiqatın nəticələrinə əsasən "Gülüstan türbəsi" və "Qarabağlar Türbə Kompleksi" kitablarını hazırlamışlar. Həmçinin İslam dini ilə bağlı olan "Naxçıvanın türk-islam mədəniyyəti abidələri", "Naxçıvanın məscid və ziyarətgahları", "Naxçıvan türbələri", "Naxçıvan imamzadələri" və digər kitablar hazırlanaraq nəşr etdirilmişdir. İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasında din və elmin qarşılıqlı inkişafına göstərilən diqqət və qayğıya görə muxtar respublika ziyalıları adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev demişdir ki, bu gün muxtar respublikada dövlət-din münasibətlərinin inkişafı sahəsində görülən işlərin nəticəsidir ki, dini-mənəvi dəyərlərimiz qorunur, sağlam dini-ideoloji təbliğat işi aparılır. Hazırda muxtar respublikada dini bayramlarımız yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunaraq din xadimlərinin istifadəsinə verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin tabeliyində "Mənəvi Dəyərlər Fondu" yaradılmışdır. Ötən müddətdə dövlətçiliyimizə zidd, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçilik prinsipini təbliğ edən 3492 adda 3655 dini təyinatlı ədəbiyyatın muxtar respublika ərazisində yayılmasının qarşısı alınmışdır. Pandemiya dövründə də dini mərasimlərin icrası dayandırılmamış, müəyyən məhdudiyyətlər nəzərə alınmaqla yerinə yetirilmişdir. Ramazan bayramının və Məhərrəm ayının doqquzuncu və onuncu günlərinin ayinləri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məscidlərdə ənənəvi İslam qaydalarına uyğun şəkildə icra olunmuşdur.

Vüqar Babayev "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilən son dəyişikliklər barədə məlumat vermiş, kollektiv adından minnətdarlığını bildirmiş, bundan sonra da dəyərlərin qorunması və dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov bildirmişdir ki, muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri dindarların fəaliyyəti üçün də hərtərəfli imkanlar yaratmışdır. Yeni məscidlərin tikilməsi, dini icmaların fəaliyyətinin təmin olunması, məscidlərdə iş otaqlarının ayrılması, dini icmalara avtomobillərin verilməsi muxtar respublika dindarları tərəfindən minnətdarlıqla qarşılanır, onlara göstərilən yüksək

*Ardı 2-ci səhifədə*

qayğı kimi dəyərləndirilir. Görülən işlərin davamı olaraq 2016-cı il mayın 3-də Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura yaradılmışdır. Şura din xadimlərinin fəaliyyətlərini mövcud qanunvericiliyə və şəriət normalarına uyğun şəkildə daim diqqətdə saxlamış, dini abidə və ziyarətgahların qorunması və onlardan düzgün istifadə edilməsini insanlara aşılamışdır. Ötən müddətdə altı attestasiya imtahanı təşkil olunmuş, 407 din xadiminə vəsiqə verilmişdir. Qeydiyyatdan keçənlər ödənişsiz olaraq yay və qış fəslinə uyğun iki dəst vahid geyim forması ilə təmin olunmuşlar. Naxçıvan şəhər Sarvanlar, Babək, Şərur, Ordubad və Şahbuz şəhər məscidlərində qadın və kişilərdən ibarət müvafiq təkmilləşdirmə kurslarında 1390 nəfər iştirak etmişdir. Bu gün muxtar respublikada din xadimlərinin sosial müdafiəsinin gücləndirilməsi də dini-mənəvi tədbirlər sırasında xüsusi yer tutur. Artıq hər ay attestasiyadan keçən və vəsiqə alan dindarlara əməkhaqqı ödənilir. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə din xadimlərinin əməkhaqları bu il artırılmışdır. Həmçinin bu gün Babək, Ordubad, Culfa və Kəngərli icmalarına avtomobillər təqdim olunur. Sahib Məmmədov muxtar respublikanın din xadimlərinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

"Naxçıvan" Universitetinin İlahiyyat kafedrasının müdiri Xəfayət Əliyeva demişdir: Naxçıvan Muxtar Respublikasında peşəkar dini və dünyəvi biliklərə malik ixtisaslı kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılmış, 2015-ci ildən etibarən "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası üzrə bakalavr, 2020-ci ildən isə İslamşünaslıq ixtisası üzrə magistr pilləsi üzrə kadr hazırlığına başlanılmışdır. 4 tələbə ilə fəaliyyətə başlayan ixtisasa ötən dövrdə 65 tələbə qəbul olmuşdur. 2015-ci ildən fəaliyyət göstərən İlahiyyat kafedrasında hazırda 10 müəllim çalışır. Həmin ixtisas üzrə bakalavriat səviyyəsində 52, İslamşünaslıq ixtisasının magistratura səviyyəsində isə 1 tələbə təhsil alır. Universitetimizdən Dinşünaslıq ixtisası üzrə 13 tələbə məzun olmuş və ixtisaslarına uyğun əmək fəaliyyəti ilə məşğuldurlar. Dinşünaslıq ixtisasında İslam dininin tədrisinə dair Ərəb dili, Quran oxu və təcvid, Hədis, Təfsir, Fiqh, Kəlam, Təsəvvüf kimi fənlərlə yanaşı, dinləri sosioloji, psixoloji, fəlsəfi və tarixi aspektlərdən tədqiq edən fənlərin tədrisi də aparılır. Eyni zamanda digər aparıcı dünya dinlərinin – xristianlıq, yəhudilik, buddizmin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, eləcə də fəlsəfə, sosiologiya, multikulturalizm kimi sosial və humanitar elmlər də tədris olunmaqdadır. Hazırda "Naxçıvan" Universitetinin elmi kitabxanasında 1393 adda 2243 dini ədəbiyyat müəllim və tələbələrin istifadəsindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Dinşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinə hamiliyə verilmişdir. Xəfayət Əliyeva göstərilən diqqət və qayğı müqabilində daha səylə çalışacaqlarını bildirmişdir.

Babək Rayon Dini İcmasının sədri Qasım Qasımov dini-mənəvi dəyərlər sahəsində görülən işlər və yaradılan şəraitə görə dindarlar adından minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hər iki rəhbərliyi dövründə mənəvi dəyərlərin qorunub yaşadılmasını diqqətdə saxlamış, müstəqillik illərində ölkəmizdə dövlət-din münasibətlərinin əsasını qoymuşdur. ***"Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır"***, – deyən ulu öndərin rəhbərliyi ilə bu sahəni tənzimləyən qanunvericilik bazası yaradılmış, vicdan və etiqad azadlığı təmin olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev də dahi şəxsiyyətin yolunu uğurla davam etdirərək dini-mənəvi dəyərləri inkişafın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Artıq Azərbaycan dünyaya dövlət-din modelini təqdim edir, ölkəmizdəki dini dözümlülük və tolerantlıq nümunə kimi qəbul olunur.

"Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, o cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır. Müdriklər də deyirdi ki, inkişaf yalnız elmə əsaslandıqda məqsədə tam çatmaq mümkün deyil. Çünki elmdə irəli gedib mənəviyyatda geridə qalan cəmiyyət, son nəticədə, irəli yox, geriyə gedir. Bu gün dünyanın bir tərəfində insanlar dini və milli dözümsüzlükdən, digər tərəfində təriqətlərarası qarşıdurma



və terrorizmdən əziyyət çəkirlərsə, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında isə dini həmrəylik və tolerantlıq hökm sürür. Təktanrıçılığın mərkəzlərindən olan Naxçıvanda yerli əhali 653-cü ildə İslam dinini könüllü qəbul etmiş, bu ərazidə sağlam dini etiqad və zəngin mənəvi dəyərlər sistemi formalaşmışdır. Təsadüfi deyil ki, on beşinci əsrdə tərtib olunmuş "Dünyanın İslam tarixi xəritəsi"ndə Naxçıvan İslamın ən güclü dayaqlarından biri kimi göstərilmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Naxçıvan Muxtar Respublikasında dövlət-din münasibətləri dəyərlərimizə və qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, mənəvi dəyərlərin qorunub yaşadılması istiqamətində sistemli tədbirlər görülür. Müstəqillik illərində muxtar respublikada Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura, Mənəvi Dəyərlər Fondu, hər rayonda Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyalar və dini icmalar yaradılmışdır. Həmçinin dini təhsil sistemi təkmilləşdirilmiş, "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası açılmış, eyni zamanda dindarlar üçün kurslar təşkil olunmuşdur. Muxtar respublikada dini-tarixi abidələr də bərpa edilmiş, yeni məscidlər tikilmiş, din xadimlərinin sosial təminatı sahəsində müvafiq tədbirlər görülmüşdür. Bütün bunlar sağlam dini ideologiyanın formalaşmasına öz təsirini göstərmiş, dini təhlükəsizlik təmin olunmuşdur. Hazırda muxtar respublika məscidlərində fərqli məzhəb mənsubu olan şəxslər birgə ibadət edir, vəhdət namazı qılırlar. Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilməsi də bir tərəfdən bu ərazidə tarixən formalaşmış zəngin türk-islam mədəniyyəti ilə bağlı idisə, digər tərəfdən də müstəqillik illərində dini-mənəvi dəyərlərin yaşadılması sahəsində görülən işlərin nəticəsi idi.

Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: Dini təhlükəsizlik olmadan milli təhlükəsizlikdən danışmaq mümkün deyil. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, ***"Milli-mənəvi dəyərlərimiz təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın mühüm atributudur".*** Sağlam mənəviyyat üç yolla – milli kimliklə dinin, elmlə dinin və təhsillə dinin vəhdəti hesabına formalaşır. Qarşıda duran birinci vəzifə dini kimliyimizlə milli kimliyimizin vəhdət təşkil etməsidir. Bu səbəbdən də dini dəyərlərimizlə milli adət-ənənə və dəyərlərimiz xalqımızın varlığının ifadəsi kimi vahid sistem formasında qorunmalı, inkişaf və təbliğ edilməlidir. Məzhəbçilik, radikalçılıq və xurafatçılıq təkcə dini-mənəvi dəyərlərə zidd olan hərəkətlər deyil, eyni zamanda milli təhlükəsizlik üçün təhdiddir. Bu məsələ daim diqqətdə saxlanılmalı, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi məzhəb və dini ayrı-seçkiliyə, qeyri-ənənəvi dini cərəyan və təriqətlərə qarşı tədbirlərini davam etdirməli, dini baxışlardan kənar məqsədlər üçün istifadə cəhdlərinin qarşısı alınmalıdır. Naxçıvan Muxtar Respublikası mühüm strateji mövqedə yerləşir. Ona görə də Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti dini təhlükəsizliklə bağlı əməliyyat və profilaktik tədbirləri diqqətdə saxlamalıdırlar.

Ali Məclisin Sədri demişdir: İslam elm və təhsilə, mənəvi saflığa çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu olmuşdur. Peyğəmbərimiz də ***elmi dinin nizamı kimi dəyərləndirmişdir.*** Müqəddəs kitabımız "Qurani-Kərim" də "Oxu" əmri ilə başlayır. Naxçıvanda elmə və təhsilə yüksək dəyər verilməsinin başlıca səbəblərindən biri də onun mənəviyyatımızla sıx bağlı olmasıdır. Belə bir yanaşma da var ki, elm dindən ayrıdırsa, uçurum, din elmdən ayrıdırsa, xurafatdır. Buradan o nəticəyə nail oluruq ki, sağlam mənəviyyatın formalaşdırılmasının ikinci yolu – elmlə dinin vəhdəti günün tələbidir. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi elmlə dinin vəhdətinə nail olmalı, bu sahədə birgə tədqiqatlar aparılmalı, elmi-dini ədəbiyyatlar yazılmalı, dini-mənəvi dəyərlərimizə tariximizin mirası kimi yox, bu günümüzün və gələcəyimizin təminatı kimi yanaşılmalıdır.

Qeyd olunmuşdur ki, müasir dünyanın elmi-texniki tərəqqisi ilə ayaqlaşan və mənəvi köklərinə bağlı gənc nəslin yetişdirilməsi qarşıda duran əsas vəzifələrdir. Alman filosofu Hegel yazırdı ki, din inama əsaslanmaqla vasitəsiz bilik olsa da, hər halda yenə də tərbiyə və təhsillə vasitələnməlidir. Düşünürük ki, dini-mənəvi dəyərlərin təhsil prosesində elmi-pedaqoji tələblərə uyğun öyrədilməsi yalnız təhsilli deyil, həm də mənəviyyatlı gənclərin yetişməsinə imkan verəcəkdir. Ona görə də muxtar respublikada sağlam mənəvi tərbiyənin üçüncü şərti – dinlə təhsilin vəhdəti öncül istiqamət kimi götürülməli, Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi birgə fəaliyyət proqramı hazırlamalı, məktəblərdə mənəvi dəyərlərimizlə bağlı interaktiv dərslər keçilməli, dini-mənəvi dəyərlərimizin mahiyyəti şagirdlərə milli mənlik şüurunun formalaşdırılması yolu ilə öyrədilməlidir. Tələbə-gənclik böyük qüvvədir. Onların dini-mənəvi tərbiyəsi daim öncül istiqamət olmalı, ali və orta ixtisas təhsili müəssisələrində dini-mənəvi dəyərlərimizin, o cümlədən İslam tarixinin və islam əxlaqının əsas prinsiplərinin öyrədilməsi məqsədilə dərsdənkənar kurslar təşkil edilməli, gənclərdə dini təsəvvürlərin və biliklərin artırılması istiqamətində əməli tədbirlər görülməli, dinə şüurlu münasibət formalaşdırılmalıdır.

Dünyəvi dini təhsil dinin əsaslarının doğru şəkildə cəmiyyətə çatdırılmasında və yad dini-ideoloji təsirlərin qarşısının alınmasında mühüm vasitədir. Yəni sağlam dini təhsil sistemi bu sahədə dəyərlərinə bağlı kadr hazırlığını, o isə, son nəticədə, milli-mənəvi birliyi təmin edir. Ona görə də "Naxçıvan" Universiteti Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi ilə birlikdə Dinşünaslıq ixtisası üçün kadr hazırlığını təkmilləşdirməli, bu günün reallıqları ilə səsləşən və din sahəsində sağlam ictimai şüuru formalaşdıran kadrlar hazırlanmalıdır. İslamın və müqəddəs kitabımız "Qurani-Kərim"in elmi əhəmiyyəti ilə bağlı çoxsaylı tədqiqatlar aparılıb. Tarixboyu Azərbaycan maarifçilərini də bu məsələ düşündürmüş, on beşinci əsrdə Naxçıvan torpağının yetirməsi, türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş təsəvvüf və təfsir alimi Nemətullah Naxçıvani, XX əsrin əvvəllərində isə Mirməhəmməd Kərim Bakuvi və Məhəmmədhəsən Mövlazadə Azərbaycan dilində "Qurani-Kərim"in təfsirlərini hazırlayıb nəşr etdirmişlər. Hər iki nəşr müqəddəs kitabımızın hikmətlərinin insanlara çatdırılması və elmi-dini dünyagörüşün formalaşmasına xidmət edən dəyərli ədəbiyyatlardır. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dindarların hazırlanmasında və Dinşünaslıq ixtisasının tədris proqramında elmi təsdiqini tapmış dini ədəbiyyatlara, xüsusilə də "Qurani-Kərim"in təfsirlərinə üstünlük verməli, mənəvi dəyərlərimizin mahiyyətinə uyğun kitabların yazılmasına diqqət artırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçiliyi təbliğ edən ədəbiyyat, əşya və digər materiallar dini mahiyyətindən uzaqlaşdırır. Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti bu cür materialların muxtar respublikaya gətirilməsi və yayılmasının qarşısını almalı, aşkar olunan və açıq şəkildə satışda olan dini materialların və kitabların Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi ilə birlikdə ekspertizası aparılmalıdır. Gənclərin vətənpərvərlik tərbiyəsi cəmiyyətin hər bir üzvünün borcudur. Xüsusilə də dindarların üzərinə, bu mənada, mühüm vəzifələr düşür. Ümummilli liderimiz Heydər Əliyev də tövsiyə edirdi ki, ***"Din xadimlərimiz gərək gənclərimizi Vətənə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etsinlər, onları Vətəni qorumaq üçün hazırlasınlar".*** Din xadimləri dahi şəxsiyyətin tövsiyələrini əsas götürməli, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura bu sahədə sistemli iş aparmalı, tədbirlər planı hazırlanıb icra edilməlidir.

Ali Məclisin Sədri bildirmişdir ki, İslamı birləşdirən üç başlıca dəyərdən biri də məscidlərdir. Məscidlər təkcə ibadət yerləri deyil, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır. Hazırda muxtar respublikada 214 məscid vardır. Hər bir məscid əhatə etdiyi yaşayış məntəqəsində dini-mənəvi dəyərlərimizin təbliğ edildiyi mərkəzlər kimi fəaliyyətlərini gücləndirməlidir. Dini icmalara tövsiyəmiz odur ki, fəaliyyətlərini dini mərasimlərlə bitmiş hesab etməsinlər, dini məsələlərin və ayinlərin dindarlar arasında düzgün təbliğinə, İslam dininin olduğu kimi çatdırılmasına nail olsunlar. Dini dəyərlərin, xüsusilə də ibadət, ayin və mərasimlərin İslami qaydalara uyğun keçirilməsi və təbliği yad dini-ideoloji təsirlərin qarşısının alınmasına xidmət edir. Təcrübə də göstərir ki, cəmiyyətdə sağlam dini dünyagörüş və təfəkkür sağlam təbliğat mexanizmi müəyyənləşdirildiyi zaman formalaşır. Buna isə dindarların bilik və dünyagörüşünü artırmaqla nail olmaq mümkündür. Ona görə də muxtar respublikada din xadimlərinin bilikləri daim artırılmalı, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi tərəfindən dindarların attestasiyası davam etdirilməlidir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura muxtar respublikada dini bayramların, ayinlərin və yas mərasimlərinin bundan sonra da dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsinə diqqət etməli, məscidlərdə oxunan xütbələr mənəvi dəyərlərimizə zidd olmayan mövzulara həsr olunmalı, vətənpərvərlik və torpağa bağlılıq kimi ali dəyərlər İslam əxlaqı prizmasından izah edilməlidir. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə muxtar respublikada Ramazan və Məhərrəmlik aylarının fəzilətlərinə və dəyərlərimizə uyğun keçirilməsinə nail olmalıdır. Ölkə Prezidentinin müvafiq Fərmanına əsasən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş son dəyişikliklərin tətbiqi Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura tərəfindən diqqətdə saxlanılmalıdır. Dinə çağırış onun dəyərlərinə hörmətlə və bu dəyərləri öyrənməklə mümkündür. Çünki mənəvi dəyərlər o halda fayda verir ki, insanlarda bu dəyərlərə şüurlu münasibət formalaşsın. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dini maarifləndirmə tədbirlərinin effektivliyini artırmalı, din və cəmiyyət, din və dövlət münasibətlərinin mahiyyətini ifadə edən maarifləndirici tədbirlər keçirilməli, müzakirələr aparılmalı, kütləvi informasiya vasitələrinin imkanlarından səmərəli istifadə olunmalıdır.

Ali Məclisin Sədri çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin ***"Azərbaycan müstəqil dünyəvi dövlətdir. Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət həmişə birdir, bir yerdədir. Belə də olmalıdır. Çünki bizim amalımız da, istəyimiz də birdir. Biz istəyirik ki, Azərbaycan daha da güclü dövlətə çevrilsin, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənsin... və uzunmüddətli inkişafımız uğurlu olsun"*** fikirləri ilə tamamlamış, bu yolda və qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamışdır.

Sonra dini-mənəvi dəyərlərə həsr olunmuş sərgiyə baxış olmuşdur. Sərgidə Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlərə dair dərc olunmuş 40-a yaxın kitab, xəttatlıq nümunəsi, eləcə də qəzet materialları, dini-mənəvi dəyərlərə həsr olunmuş fotoşəkillər və sənədli filmlər nümayiş olunmuşdur.

Ali Məclisin Sədri Nemətullah Naxçıvaninin "Qurani-Kərim"in təfsirinin dini maarifləndirmə tədbirlərində və kadr hazırlığında istifadəsinin əhəmiyyətini vurğulamış, ali dini təhsilli kadrların hazırlanması və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində dini ədəbiyyatların tərcümə olunması barədə müvafiq tapşırıqlar vermiş, dini-mənəvi dəyərlər sahəsində görülən işlərdə əməyi olanlara və muxtar respublika dindarlarına təşəkkür etmişdir.

Sonra Babək, Ordubad, Culfa və Kəngərli rayon dini icmalarına avtomobillər təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun 10 illik yubileyi qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun 10 illik yubileyi ilə bağlı keçirilən tədbirin iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Gənclər Mərkəzində keçirilən tədbirdən öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.*

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, Gənclər Fondu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə yaradılıb, 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilib, fondun fəaliyyəti təmin olunub. Ali Məclis Sədrinin 2018-ci il 27 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" Publik Hüquqi Şəxsin yaradılması isə diyarımızda gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılması, bu sahədəki tədbirlərin, gənclərlə bağlı layihələrin həyata keçirilməsini daha da genişləndirib.

Qeyd edilib ki, Gənclər Fondu ötən dövrdə muxtar respublikamızda yaşayan istedadlı gənclərin üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlərə uyğun olaraq onlar arasında yaradıcılıq müsabiqələrinin keçirilməsini də daim diqqət mərkəzində saxlayıb. Muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin əməkdaşları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, tam orta məktəblərin şagirdləri, məhdud fiziki imkanlı gənclər arasında müxtəlif mövzularda keçirilən müsabiqələrdə də yüzlərlə gəncin iştirakı və mükafatlandırılması təmin olunub.

Vurğulanıb ki, könüllülük fəaliyyətinin yaradılması və stimullaşdırılması, gənclərin intellektual bacarıqlarının artırılması, gənclərə vətənpərvərlik tərbiyəsinin aşılanması, milli-mənəvi dəyərlərimiz və adət-ənənəmizin təbliğ edilməsi, müxtəlif dillərdə kursların keçirilməsi, onların innovativ biliklərinin, müxtəlif təlimlər vasitəsilə bilik və bacarıqlarının artırılması və digər istiqamətlərdə mütəmadi işlər görülüb. Gənclərin ölkə və beynəlxalq səviyyəli layihələrdə iştirakı da xüsusi diqqətdə olub, bir çox ölkə və beynəlxalq səviyyəli tədbirin və düşərgənin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi təmin edilib.

Cəbi Quliyev diqqətə çatdırıb ki, 10 il öncə təsis edilən fondun başlıca prinsipi hər zaman gənclərimizin milli ruhda, savadlı, geniş dünyagörüşlü, təşəbbüskar, Vətənə, dövlətə bağlı yetişməsi olub. Fond bundan sonra da öz işini günün tələbləri səviyyəsində quracaq, gənclərin muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında yaxından iştirakının təmin edilməsi üçün zəruri tədbirləri davam etdirəcək.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru çıxışının sonunda Naxçıvanda gənclərin inkişafı üçün göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Sonra Gənclər Fondunun yaradılmasının 10-cu ildönümü münasibətilə fəaliyyətlərində fərqlənən əməkdaşlara təşəkkürnamələr təqdim olunub, fondun gənclərlə iş sahəsində fəaliyyətinə həsr edilmiş videoçarxa baxılıb.

**✍ Nail ƏSGƏROV**

*Estafet*

## Soyqırımı faciəsi – qisası döyüş meydanında alınan tarix

Mart Azərbaycan xalqının milli bayramı olan Novruzun gəlişi ayıdır. Hamı bu ayı böyük həvəslə, yeni ümidlərlə, xoş arzularla gözləyir. 1918 -ci ilin baharını da Azərbaycan xalqı sıxıntılardan qurtulmaq, daha xoşbəxt həyat arzusu ilə gözləyirdi. Xalqımız elliklə qışın başa çatması, yazın gəlişinin sevinci içində idi. Lakin bu, uzun sürmədi. "Mart çıxdı, dərd çıxdı", – deyən xalqımız hələ martın son günündə qarşılaşacaqları qanlı oyunlardan xəbərsiz idilər. Kim bilərdi ki, xoşniyyətli bu xalqın qara bəxtinə nələr yazılıb, ozamankı bolşeviklərin və daşnakların acgözlüyü Azərbaycan xalqına nələr yaşadacaq. Qoynunda çıxan qara qızıla görə qürurlanan Xəzər dənizi də sanki olacaqları duymuşdu. Ona görə də elə bil mazut yerinə qan qoxusu gəlirdi dənizdən. 1918-ci ilin martında xalqın bütün arzuları bir güzgü kimi yerə düşərək çilik-çilik oldu. Həmin ilin mart ayı bir xalqın tarixə düşən qara bayramına çevrildi. Bunun səbəbi isə Rusiya bolşeviklərinin işğalçılıq siyasəti olan bütün Qafqaz xalqlarını birləşdirmək arzusuna qarşı Azərbaycan xalqının istiqlaliyyət istəməsi idi. Məhz buna görə də V.İ.Lenin başda olmaqla bolşevik Rusiyası bütün Azərbaycanda hakimiyyəti ələ keçirmək siyasəti yeridirdi. Bu məqsədlə Rusiya Xalq Komissarları Soveti (XKS) S.Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin etmişdi. Beləcə, Azərbaycanda güclənməkdə olan milli dirçəliş və milli azadlıq hərəkatını beşikdə ikən boğmaq üçün Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyanın göstərişi ilə daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla kütləvi qırğınlar törədildi. Hətta bu qırğınlara ciddi hazırlaşan S.Şaumyan İ.Stalinə məktub yazaraq Qafqaz Qırmızı ordusunun təşkili üçün təcili sürətdə 10 milyon rubl göndərilməsini xahiş etmişdi. İstəyi nəzərə alan Moskva ermənilərə böyük maddi-mənəvi dəstəyi əsirgəmədi. Çünki əvvəlcədən planlaşdırılan bu soyqırımında bolşeviklərin zərbə qüvvəsini "daşnaksütyun" təşkil edirdi. Buna görə də S. Şaumyanın təşkilatçılığı ilə Birinci Dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni əsgər və zabitləri Bakıda cəmləşdirildi. Həmçinin Şaumyanın yaratdığı Qırmızı ordunun tərkibi də, demək olar ki, tamamilə ermənilərdən təşkil olunmuşdu.

Martın 30-da erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlman türklərə ilk atəşi açırlar və onlara qarşı soyqırımına başlayırlar. Martın 31-də isə səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlıların yaşayan məhəllələrə hücum edirlər. S.Şaumyanın xahişi və V.İ.Leninin xüsusi göstərişi ilə Saritsından göndərilən iki təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin müsəlman türkləri yaşayan digər məhəlləri bombalamağa başlayırlar. Martın 31-də şəhərin sübh çağında erməni hərbi quldur dəstələrinin başçıları və silahlanmış erməni "ziyalıları" təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərilir. Burada onların törətdikləri vəhşiliklər işıqlandırılmasın deyə bu quldur dəstələri bir çox qəzetlərin mətbəəsini yandırmışdılar. İnsan qanına susayan cəlladların cinayətləri bununla kifayətlənmirdi. Daha sonra bu soyqırımı Şamaxı, Quba, Qarabağ bölgəsi, Zəngəzur, Naxçıvan, Lənkəran və Gəncədə də davam etdi. Şəhər və kəndlərimiz yandırıldı, milli mədəniyyət abidələrimiz dağıdılıb məhv edildi.

1918-ci ildə müsəlman türklərinə qarşı törətdikləri soyqırımda ermənilər unutmuşdular ki, həqiqət günəşini şərin zülməti söndürə bilməz. Ötən əsrin sonlarında ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu tarixi hadisələrə siyasi-hüquqi qiymət verilməsinə nail oldu. Dahi şəxsiyyətin erməni vandalizminin beynəlxalq arenada ifşası, Azərbaycanın tarixi həqiqətlərinin təbliği istiqamətində gördüyü müqəddəs işlər sonra da qətiyyətlə davam etdirildi, Ermənistanın faşist niyyətli, terrorçu bir dövlət olduğu bütün dünyaya bir daha tanıdıldı.

2020-ci il sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin ölkəmizə təcavüzü isə Azərbaycan Ordusunu əks-hücuma keçməyə məcbur etdi. Ordumuz 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında qalmış torpaqlarımızın alınması, beynəlxalq hüquqla təsbit olunan ərazi bütövlüyünün təminatı üçün bütün imkanlardan istifadə etdi, əsl şücaət göstərdi. Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmən diz çökdürüldü, tamamilə məhv edildi. Dövlət-xalq-ordu birliyi sayəsində haqq işimiz qalib gəldi, həqiqət günəşi yenidən parlayaraq keçmişin də qaranlıqlarına işıq saldı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də qeyd etdiyi kimi, bütün şəhidlərimizin, tarixboyu erməni vandalizminin qurbanları olan bütün həmvətənlərimizin qisası döyüş meydanında alındı. Bu Tarixi Zəfərimiz ermənilərin ikiyüzillik əsassız iddialarının boşa çıxması, əzəli torpaqlarımızın işğaldan azad edilməsi haqqın qələbəsi, xalqımıza qarşı törədilmiş soyqırımlara ən layiqli cavab oldu. Bundan sonra erməni vəhşiliklərinə heç bir vəchlə yol verməyəcək milli həmrəyliyimiz daim var olsun, azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımız daim dalğalansın, ay-ulduzu aydın sabahlarımıza işıq salsın!..

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

***Sosial-iqtisadi inkişafın ən mühüm istiqamətlərindən birini kənd təsərrüfatı təşkil edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyinin və əhali rifahının təmin olunması baxımından olduqca böyük əhəmiyyətə malikdir.***

*Dövlət proqramı icra olunur*

## Aqrar sahədə stimullaşdırıcı tədbirlər davam etdirilir

Naxçıvan Muxtar Respublikasında mövcud təbii şərait burada aqrar sektorun inkişafı üçün geniş imkanlar açır. Bu imkanlardan maksimum istifadəyə yönələn dövlət əhəmiyyətli tədbirlərin ardıcıl xarakter alması kənd təsərrüfatını iqtisadiyyatın aparıcı sahələrindən birinə çevirmişdir. Görülən işlərin əsas məqsədi bir tərəfdən aqrar sahənin dayanıqlı inkişaf mövqeyini qorumaq, digər tərəfdən yerli istehsal məhsullarının ixrac potensialını artırmaqdan ibarətdir. Bu istiqamətdə ötən dövrlərdə əldə edilmiş müsbət nəticələrin davamlılığını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Ötən il proqramda nəzərdə tutulan tədbirlərin icrası diqqətdə saxlanılmışdır.

Aqrar sahədə inkişafı təmin edən başlıca amillərdən biri göstərilən dövlət dəstəyidir. Bu məqsədlə həyata keçirilən tədbirlər istehsalda səmərəliliyi yüksəltməklə yanaşı, həm də təbii resurslardan dayanıqlı istifadəyə imkan verir. Dövlət proqramının icrası məqsədilə ötən il muxtar respublikada süd və arıçılıq məhsullarının qablaşdırılması, yabanı bitkilərin konservləşdirilməsi, soyuducu anbar, heyvandarlıq, arıçılıq, bağçılıq, gülçülük, tingçilik və limonçuluq təsərrüfatlarının yaradılması məqsədilə 140 layihənin maliyyələşdirilməsinə 3 milyon 325 min 878 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, 2021-ci ildə kənd təsərrüfatına əsaslanan istehsal sahələrinin yaradılması istiqamətində 139 layihə üzrə işlər başa çatdırılmış, 34 layihə üzrə işlər davam etdirilmişdir. Bu dövrdə Naxçıvanda dövlət maliyyə dəstəyi hesabına 72 heyvandarlıq, 15 arıçılıq, 2 quşçuluq, 1 tingçilik, 4 bağçılıq təsərrüfatının yaradılması, 15 heyvandarlıq,



1 quşçuluq, 1 bağçılıq, 1 limonçuluq təsərrüfatının genişləndirilməsi və 1 üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmışdır. Culfa rayonunda kompost və torf istehsalı sahəsi yaradılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının davamlı inkişafına təkan verən istiqamətlərdən biri də Şərur Sənaye Məhəlləsinin yaradılmasıdır. Sənaye məhəlləsində fəaliyyətə başlayacaq aqraryönümlü istehsal sahələrini yerli xammalla təchiz etmək zərurəti bu sahədə inkişafı stimullaşdıran önəmli faktorlardandır. 2021-ci ildə burada bitki yağı istehsalı sahəsinin yaradılması üçün işlər davam etdirilmişdir. Müvafiq avadanlıqların alınması məqsədilə Türkiyədə fəaliyyət göstərən şirkətlə müqavilə bağlanılmış və ötən il onların bir hissəsinin muxtar respublikaya gətirilməsi təmin olunmuşdur.

Ərzaq təhlükəsizliyinin mühüm prinsiplərindən birini kənd təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət işi təşkil edir. Bu həm əhalinin sağlamlığının qorunmasına, həm də ixrac bazarlarında inamlı mövqe tutulmasına gətirib çıxarır. Proqramın icrası məqsədilə ötən il muxtar respublikada emal olunmuş kənd təsərrüfatı məhsullarının 201 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmışdır. Nəticələrin texniki normativ-hüquqi aktların, standartların və şərtlərin tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Ali Məclisin Sədri demişdir: ***"İstehsal olunan məhsulların ixrac potensialını yaratmadan özəl bölmənin inkişafından danışmaq mümkün deyil. Bu sahədə dövlət üzərinə düşən vəzifələri yerinə yetirir, sahibkarlara dəstək verir, ixracın təşviqi sahəsində ardıcıl tədbirlər görülür".*** Aqrar sahə üzrə yeni ixrac imkanlarının formalaşdırılması məqsədilə görülən işlər bu sahədə rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün zəruri şərtlərdən biri kimi çıxış edir. Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının ixrac bazarlarının genişləndirilməsi istehsalçıların öz məhsullarını əlverişli şərtlərlə sataraq gəlir əldə etmələrinin təmin edilməsinə və beləliklə də, istehsalın artırılması üçün davamlı stimul yaradılmasına nail olmağın mühüm vasitəsidir. Ötən ilin müxtəlif dövrlərində Bakı, İstanbul, Moskva və Dubayda keçirilən beynəlxalq səviyyəli qida məhsulları sərgilərində muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələrinin iştirakı təmin olunmuşdur. Dövlət proqramının icrasına uyğun olaraq "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən tütün, meyvə araqları və qarğıdalı məhsullarının Bakı şəhərinə, eləcə də Türkiyə, Polşa və İrana maneəsiz şəkildə çıxarılması məqsədilə 9 halda mənşə sertifikatı verilmişdir. İxracın stimullaşdırılmasını təmin edən amillərdən biri də sürətli gömrük xidmətinin təşkilidir. Ötən il bu məqsədlə "Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə ixrac əməliyyatları üzrə "Yaşıl dəhliz" gömrük-buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir.

Dövlət proqramında müəyyən edilmiş mütərəqqi xarakterli tədbirlərdən biri özünüməşğulluq proqramı çərçivəsində aztəminatlı ailələrin məşğulluğu ilə bağlı işlərin davam etdirilməsidir. Muxtar respublikada sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlbi, məşğulluğunun təmin olunması da xüsusi diqqətdə saxlanılır. Ötən il Naxçıvanda 330 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilmişdir ki, bu da 2020-ci illə müqayisədə 39 ailə çoxdur. Özünüməşğulluğu təmin edilən və kənd təsərrüfatı sahəsi üzrə fəaliyyət göstərən ailələrə iribuynuzlu, xırdabuynuzlu mal-qara, arı ailəsi, miniyerşumlayan, odunkəsən, otbiçən, inkubator, quş tükü təmizləyən, otdoğrayan, südsağan və digər aqreqatlar verilmişdir.

Aqrar sahədə məhsul istehsalını və emalını stimullaşdıran mühüm tədbirlərdən biri də maarifləndirmə-təbliğat işidir. Bu həm xidmət sahələrində yerli kənd təsərrüfatı məhsullarının təklif olunması imkanlarını artırır, həm də istehsalçıların öz fəaliyyət sahələrini genişləndirmələri üçün həvəsləndirici rol oynayır. 2021-ci ildə xidmət sahələri ilə ailə təsərrüfatları arasında əlaqələrin gücləndirilməsi məqsədilə muxtar respublikanın şəhər və rayonlarında 516 ticarət obyektində maarifləndirmə işi aparılmışdır. Ötən il, eyni zamanda ailə təsərrüfatçılarının, sahibkarların və torpaq mülkiyyətçilərinin maarifləndirilməsi istiqamətində də işlər davam etdirilmişdir. Bu məqsədlə Dövlət proqramının icrasına uyğun olaraq 56 seminar-müşavirə və görüş keçirilmiş, 18 adda 540 nüsxə maarifləndirici buklet hazırlanaraq paylanmışdır.

Dövlət proqramının icrası muxtar respublikada əlverişli aqrobiznes mühitinin formalaşdırılması, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və ixrac potensialının artırılması sahəsində yeni nailiyyətlərin əldə olunmasını təmin edir.

**"Şərq qapısı"**

***Azərbaycan Yazıçılar Birliyinin üzvü, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 ili tamam olur. Azərbaycan ədəbiyyatşünaslığının aktual problemlərinə həsr olunan 20-yə yaxın kitab və monoqrafiyası, 200-dək elmi-publisistik məqaləsi, yetirdiyi yüzlərlə şagird və tələbələri bu fədakar alimin ömür salnaməsinin silinməz səhifələrini təşkil edir.***

## Naxçıvan elmi-ədəbi, mədəni mühitinin tədqiqinə həsr olunmuş mənalı ömür yolu



Fərman Yunis oğlu Xəlilov 1952-ci il martın 31-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, Həsən bəy Qazıyev kimi tanınmış bir maarif xadiminin ocağında dünyaya göz açmış, obrazlı ifadə etsək, bir mədəniyyət beşiyində doğulmuşdu və anası Azərbaycan Respublikasının Qabaqcıl maarif xadimi Bülbül xanım kiçik yaşlarından ədəbiyyatı, sözü-sənəti oğluna laylası ilə sevdirmiş, elmə, ədəbiyyata böyük maraq oyatmışdı.

Fərman Xəlilov çətin və məsuliyyətli yaradıcılıq yolunda, əsasən, iki istiqamətə yön almışdır. Onun elmi yaradıcılığının birinci istiqamətini Cənubi Azərbaycan ədəbiyyatı, xüsusilə XX əsr Azərbaycan satirik poeziyasının görkəmli nümayəndəsi Mirzə Əli Möcüzün tədqiqi təşkil edir. Mirzə Əli Möcüzün ömür yolu və yaradıcılığını hərtərəfli şəkildə tədqiq edən alim onun haqqında ilk məqaləsini 1976-cı ildə yazmışdır. Bu həvəs və sevgi tədqiqatçını 1982-ci ildə “Mirzə Əli Möcüzün yaradıcılıq yolu” mövzusunda fəlsəfə doktorluğu, 2011-ci ildə isə “Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi” adlı doktorluq dissertasiyasının müdafiəsinə qədər aparmışdır. Ədəbiyyatşünas alimin bir-birinin ardınca işıq üzü görən “Mirzə Əli Möcüz (biblioqrafiya)”, “Mirzə Əli Möcüzün əlyazmaları”, “Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz” kimi fundamental kitab və monoqrafiyaları da möcüzşünaslığı yeni faktlar və mülahizələrlə zənginləşdirmişdir.

1983-cü ildə çap olunmuş “Cənubi Azərbaycan ədəbiyyatı antologiyası”nın ikinci cildinin tərtibçilərindən biri olması da Fərman Xəlilovun bu sahədəki diqqətəlayiq xidmətlərindəndir.

Fərman müəllimin elmi tədqiqatlarının ikinci istiqamətini Naxçıvanla bağlı araşdırmalar təşkil edir. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış şair Hüseyn Nadim Naxçıvani haqqında 1971-ci ildə “Şərq qapısı” qəzetində dərc olunan məqalə ilə elm aləminə qədəm qoyan alimin imzası 50 ildir ki, Naxçıvanın elmi, ədəbi və mədəni mühitinin öyrənilməsinə xidmət edir. Bu günədək Fərman Xəlilovun ərsəyə gətirdiyi çoxsaylı elmi əsərləri Naxçıvanşünaslığa mühüm töhfələr verməklə səciyyələnir. Bu baxımdan alimin Naxçıvan ədəbi mühitinin məşhur yetirmələrindən olan Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əliqulu Qəmküsar, Əziz Şərif, Seyid Səbri, Həsən bəy Qazıyev və digər görkəmli şəxsiyyətlərin ömür və yaradıcılıq yolunun müxtəlif istiqamətləri ilə bağlı apardığı tədqiqatlar, dəqiqləşdirdiyi faktlar, istinad etdiyi şəxsi və dövlət arxiv materialları alimin tədqiqatçılıq keyfiyyətindən xəbər verir.

Fərman Xəlilovun “Naxçıvanı öyrənən elmi cəmiyyət”, “Naxçıvan teatrı. Məqalələr, xatirələr”, “Naxçıvan ədəbi mühitinin yetirməsi: Seyid Səbri”, “Maarif fədaisi: Həsən bəy Qazıyev”, “Hüseyn Razi (biblioqrafiya)”, “Elmi ənənələrdən yüksəlişə doğru: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu”, “Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu”, “Farsdilli əlyazmalar və əski çap kitabları kataloqu”, “Türkdilli əlyazma və çap kitablarının kataloqu”, “Şərq qapısı” qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu”, “Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər” adlı fundamental üçcildlik əsərləri və başqa kitab və monoqrafiyaları Naxçıvanşünaslığa bəxş etdiyi dəyərli əsərlərdir.

Son on ildə elə bir il tapmaq olmaz ki, Fərman müəllimin çoxsaylı məqalələri ilə yanaşı, elm aləminə yeni töhfə verən kitab və monoqrafiyası işıq üzü görməsin. Bu da onun tükənməz enerjisinin, tədqiqatçılıq səriştəsinin və alimlik məharətinin bariz nümunəsidir.

Fərman Xəlilovun dilçiliyə aid məqalələri də diqqəti cəlb edir. Onun “Naxçıvanda Birinci Türkoloji Qurultaya hazırlıq”, “Dilimiz varlığımızdır”, “Azərbaycan dili” dərsliklərindəki tərif və qaydalar haqqında” və dilçiliyin aktual problemlərinə həsr olunan digər əsərləri dilçi-alim səriştəsi ilə yazılmış tədqiqat işləridir. Fikrimizcə, ana dilinin saflığının qorunması, dildəki yad ünsürlərin təmizlənməsi, ədəbi dil və qrammatik normalara riayət olunması istiqamətində alimin sərgilədiyi mövqedə onun elmi rəhbəri olmuş akademik Mirzə İbrahimov məktəbinin də payı çoxdur.

Fərman müəllimin Cənubi Azərbaycanın dialekt və şivələrinə bələdliyi tədqiqatları zamanı ədəbi dil normaları ilə ümumxalq danışıq dili arasında müqayisələr aparması, bəzi məqamlarda sözün etimoloji təhlilini verməsi onun dilçi-filoloq olmasını sübut edən məqamlardandır.

Fərman Xəlilov həm də peşəkar pedaqoqdur. Onun həyat yolunun böyük bir hissəsi şərəfli müəllimlik peşəsi ilə bağlıdır. 1973-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirən Fərman Xəlilov təyinat üzrə Culfa rayonunun Milax kənd tam orta məktəbində, sonralar isə Naxçıvan şəhərində Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbdə və Türk Liseyində Azərbaycan dili və ədəbiyyatı fənlərini tədris etmişdir. 1985-ci ildə o, metodist-müəllim adına layiq görülmüşdür.

Bir neçə kəlmə də Fərman müəllimin idarəçilik fəaliyyəti haqqında... 2013-cü ilin sonunda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Ədəbiyyatşünaslıq şöbəsinin müdiri təyin edildiyi elə ilk gündən onun tələbkarlığı ilə seçilməyinin şahidi olduq. Fərman Xəlilovun şöbəyə rəhbərliyi dövründə burada Naxçıvanşünaslıq üçün qiymətli töhfə olan çoxsaylı məqalə və konfrans materialları, o cümlədən kitab və monoqrafiyalar işıq üzü gördü. 2016-cı ildə həmin bölmənin Əlyazmalar Fonduna direktor təyin edilən Fərman müəllim kiçik kollektivi başına yığıb fondun zənginləşməsi üçün əvəzsiz xidmətlər göstərdi.

Fərman Xəlilovun 2013-cü ildən etibarən ardıcıl olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən iki il müddətinə Naxçıvan Dövlət Universiteti nəzdində təşkil olunan fəlsəfə doktorluğu üzrə Dissertasiya Şurasına üzvü, 2015-ci ildən etibarən isə seminar şurasının sədri təyin olunması elm yolunda addımlayan gənc tədqiqatçılara dəstəyini, belə demək mümkündürsə, rəsmiləşdirdi. Fəlsəfə doktorluğu müdafiə edən hər kəs Fərman müəllimin tələbkarlığı ilə yanaşı, obyektiv mövqeyindən, şəffaflığından və xeyirxahlığından ağızdolusu danışır və onun bu sahədəki əməyini yüksək qiymətləndirir.

Ömrünə 70-ci bahar gələn məhsuldar alim, üzünə məsumluq çökən ağsaqqal baba – Fərman Xəlilov ilə keçmişdən danışarkən bu məqalənin yazılmasına vəsilə olan bir kövrək xatirəni də yada salırıq: ürək sızladan məqam olsa da, bu məqamı xatırlamalıyıq... Bölməmiz sanki bir dövrdə yarpaq tökümü yaşadı... neçə-neçə dəyərli alimimizin qırxı digərinin ilinə qarışdı. Bunlardan da biri nakam taleli dosent Rafiq Babayev idi. Bu dəyərli alimin, yazıçı-publisistin qəfil ölümü hamı kimi məni də ruhən və mənən sarsıtdı... Mən göz yaşları içində onun həyatı və yaradıcılığından, ömrünün son akkordlarından bəhs edən bir məqalə yazdım... Ertəsi gün işə gələndə Fərman müəllim qeyri-adi tərzdə: “Ay Zülfiyyə, elə yazmısan ki, adamın lap ölməyi gəlir!” – dedi mən də “Fərman müəllim, iraq candan, bəyəm mən sizin diriniz haqqında yazı yaza bilmərəm? İnşallah, yubiley məqaləsi yazacağam”, – dedim.

*Fərman müəllim, sizin ömrünüzə gələn 70-ci bahara həsr etdiyim məqaləni ürəkaçıqlığı ilə, sevinc içində, ruh yüksəkliyi ilə, deyə-gülə bitirirəm... Arxada böyük bir tarix, həyat yolu və təcrübə var. Qarşıda isə yeniyeni uğurlar və nailiyyətlər. Sizə uzun ömür, cansağlığı və daha böyük yaradıcılıq nailiyyətləri arzulayıram. Ömrünüzə gələn 70-ci bahar mübarək!*

**Zülfiyyə İSMAYIL**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

***Qadın geyimləri içərisində yaylıq və örtüklər mühüm əhəmiyyət kəsb edir. Xüsusilə də Şərq ölkələrində, o cümlədən ölkəmizdə də belə geyim növlərinə ehtiramla yanaşılıb. Bunlardan örpəyi, şalı, çarşabı, kəlağayını göstərmək olar.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Azərbaycan milli qadın geyimlərinin yaraşığı – *kəlağayı*

Kəlağayı “kəlağayı ipəyi” adlandırılan parçadan hazırlanır. Bunun üçün 2-3 ipək telindən eşilmiş, boyanmamış ipək sapdan istifadə olunur. Kəlağayının forması bütöv bir parçadan toxunmuş kvadrat formalı olaraq 140-160 santimetrdir. Rəng çalarları isə ənənəyə görə, kəlağayını ya bütövlükdə, yaxud da bütün sahəni ağ rəngdə saxlayaraq yalnız haşiyələnmiş hissəsini (haşiyəsini) boyayırlar. Kəlağayının naxışları Azərbaycanda “basmanaxış” adlandırılan müəyyən texniki üslubda yerinə yetirilir. Eyni üslub dünyada “isti batik” texnikası kimi də tanınır.

Kəlağayının tarixi əsrlərboyu ipəkçilik ölkəsi kimi məşhur olan Azərbaycanda bu sahənin inkişafı ilə bağlıdır. Tarixi faktlar təsdiqləyir ki, ölkəmizdə çox qədim zamanlardan bəri barama yetişdirilir, onlardan olduqca nazik ipək saplar əyirilirmiş ki, bunlardan da gözəl parçalar toxunaraq əsrarəngiz gözəlliyə malik nəfis məmulatlar istehsal edilirdi. Təsadüfi deyildir ki, Azərbaycanın ipək məmulatları, o cümlədən də təkrar olunmaz kəlağayılar, fərdi yaradıcılığın bəhrəsi kimi XIX-XX əsrlərdə keçirilən beynəlxalq sərgilərdə mükafatlar almışdır.

Kəlağayı hazırlanması dörd tamamilə fərqli fəaliyyət növündən ibarətdir. Birincisi, ipək parçanın hazırlanması, toxunmasıdır. İkincisi, ştampların qəliblərinin hazırlanmasıdır. Üçüncüsü, parçanın səthinə naxışların vurulması – basma və nəhayət, dördüncüsü, boyamadır. Bunların hər biri, öz növbəsində, müxtəlif işlərdən ibarətdir. Misal üçün özülün yığılması üzrə hazırlıq işlərini nəzərdə tutan toxumadır ki, bununla da ənənəvi olaraq “tərrahlar”, sonra isə toxucular məşğul olurdular. Ştampların (qəliblərin) hazırlanması taxta qəliblər üçün müəyyən ağac növlərinin dəqiqliklə seçilməsini, onun üzərində oymanın yerinə yetirilməsini, metal qəliblər isə metalı əymək məharəti və naxışın böyük dəqiqliklə təsvir olunmasını tələb edir. Basma naxışın parçanın səthinə vurulması (basılması) üçün usta “yağ” (rezerv) adlanan xüsusi məhlul hazırlamalı, onu müəyyən temperaturda qızdırmalı, qəlibi yağa batırdıqdan sonra parçanın üstünə qoyaraq yüngülcə onu basmalıdır. Boyama kəlağayının hazırlanma prosesinin ən mühüm hissəsidir ki, bu zaman ştamplanmış parça boya ilə dolu qaba (küpə) salınmalı, bir müddət orada saxlanılaraq ustanın fikrində tutduğundan asılı olaraq bir neçə dəfə təkrarlanmalıdır. Boyama yerinə yetirilən yer küpxana adlanır.



Konsentrik kompozisiyanın ornamental motivlərində nəbati və həndəsi naxışların, müxtəlif işarə və rəmzlərin, bütün elementlərin tarazlaşdırılmış ahəngi diqqəti cəlb edir. Haşiyəli (köbəli) kəlağayılarda zəmini daha çox (pirqəlib) və ya bir qədər az (seyrək) iri olmayan elementlərlə naxışlanmış kombinasiyalar da ola bilər. Bu növ kəlağayılar Gəncə və Ordubad bölgələri üçün səciyyəvidir.

Kəlağayının hazırlanmasında qəliblərin xüsusi yeri vardır. Qəliblər ölçüləri və hazırlanma üsulu ilə fərqlənir. Onları armud və ya cəviz ağacları kimi bərk ağac növlərindən oyma üsulu ilə kəsirlər. Digərləri isə sanki ulduz bürcləridir. Bunlar butalardır. Onlardan “bala buta”, “küsülü buta”, “güllü buta”, “hirsli buta”, “cüt buta”, “sevgili buta”, “badam buta” və sairi göstərmək olar. Səttar Bəhlulzadənin “Kəlağayı ilə natürmort” adlı rəsm əsərində məhz “Basqal” kəlağayısı təsvir edilmişdir.

Kəlağayı örtmə ilə əlaqədar xalqımızın öz qayda-qanunları olmuşdur. Belə ki, gəlinlər ağ, gənc qızlar soğanı, ortayaşlı qadınlar zoğalı və innabı, ahıl və ağbirçəklər üçün isə tündrəngli kəlağayılar münasib sayılmışdır. Yas mərasimlərində isə yaşından asılı olmayaraq, bütün qadınlar qara kəlağayı örtmüşlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı artıq bir neçə ildir ki, diyarımızda xalqımızın milli dəyərlərinin təbliği işinə çox ciddi töhfələr verməkdədir. Qeyd edək ki, neçə-neçə xalq sənətinin təşəkkül tapdığı, formalaşdığı Naxçıvan torpağında da kəlağayılara xüsusi hörmət, ehtiram bəslənmişdir. Nənə və babalarımızın söylədiklərinə görə, bir zamanlar burada kəlağayı toxuma mövcud olsa da, sonralar bu sənət sıradan çıxmış, unudulmuşdur. Lakin misilsiz Ordubad ipəyindən hazırlanan bu milli baş geyimimiz yaddaşlarda özünə əbədi bir yer tutmuşdur.

Milli dəyərlərimizin qorunmasına yüksək diqqət və qayğı göstərilən ölkəmizdə kəlağayı sənətinin inkişafı diqqət mərkəzindədir. Bu sənətin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğu beynəlxalq səviyyədə öz təsdiqini tapmışdır. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti “Kəlağayı simvolizmi və ənənəvi sənəti” adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Unutmayaq ki, milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayılarımızı uzaqlaşmağa, ona biganə yanaşmağa haqqımız yoxdur. Bu gün qürur duyuruq ki, 44 gün davam edən müharibədən qalib çıxan ölkəmizdə toxunan kəlağayılara daha bir gözəllik qatılıb. Bu ancaq Qarabağda yetişən xarıbülbülün əksinin kəlağayılarımızda da öz yerini tapmasıdır. Bu yeniliyi baş örtüyümüz kimi sevilən, böyük ehtiram göstərilən kəlağayıya gətirilməsi hər birimizi ürəkdən sevindirir. Qadın milli baş geyimi olan kəlağayılar keçmişdə olduğu kimi, bu gün də sevilir, yaşadılır. Çünki kəlağayı bizim milli mədəniyyətimizin bir parçası, yaşadıcısıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hər bir xalqın milli dəyərləri onun özünütəsdiq imkanı və milli pasportudur. Dövlətlər rəsmi atributları – bayrağı, himni, gerbi və sərhədləri ilə tanındığı kimi, bu dövlətlərin ərazisindəki millət və ya xalqlar da özlərinin milli dəyərləri – folkloru, incəsənəti, mədəniyyəti, adət-ənənələri, milli geyim və mətbəxləri ilə tanınırlar. Azərbaycan xalqının milli dəyərləri uzun əsrlərboyu xalqımızın yaşadığı tarixi ərazidə formalaşmış çox mühüm tarixi nailiyyət və milli sərvətdir”.***

**Əzizə MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının müəllimi***

*İtmişdir*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Alcəfərov Alcəfər Kamil oğluna məxsus AD seriyalı 0054007 nömrəli şəxsi vəsiqə itdiyindən etibarsız sayılır.

***

“Bayraq İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-0200980811) məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Cəfərov Rasim Musa oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 260